**A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**S Ə R Ə N C A M I**

---

№ 207 «25» Dekabr 2025-ci il

**Azərbaycan Respublikasının Binəqədi rayonu ərazisində 2026-cı ilin yanvar-mart ayları ərzində 2011-ci il təvəllüdlü kişi cinsli vətəndaşların yaşayış və ya olduğu yer üzrə ilkin hərbi qeydiyyata alınmasının təşkili haqqında**

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1283-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamını rəhbər tutaraq, 2026-cı il ərzində 15 yaşı tamam olan 2011-ci il təvəllüdlü Azərbaycan Respublikasının kişi cinsli vətəndaşlarının yanvar-mart aylarında yaşayış və ya olduğu yer üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon idarəsində ilkin hərbi qeydiyyata alınmasının keyfiyyətli və vaxtında yerinə yetirilməsi məqsədilə

**qərara alıram:**

1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin tələblərinə uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon idarəsində 05.01.2026-cı il tarixdən 30.03.2026-cı il tarixədək 2011-ci il təvəllüdlü kişi cinsli vətəndaşların ilkin hərbi qeydiyyata alınmasının keyfiyyətli və vaxtında həyata keçirilməsi məqsədilə yaradılmış ilkin hərbi qeydiyyata alınma komissiyasının tərkibi aşağıdakı kimi təsdiq edilsin.

**Komissiyanın sədri:**

N.Əliyev – Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinin rəisi, polkovnik

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| 1. Hərbi-həkim Komissiyasının sədri, terapevt | - Əkbərova Şəhla Kamal qızı |
| 2. Cərrah | - Abbasova Nəzakət Əbil qızı |
| 3. Nevropatoloq | - Məlikova Lətifə Süleyman qızı |
| 5. Psixiatr | - Məlikova Lətifə Süleyman qızı |
| 6. Oftalmoloq | - Fətəliyeva Təranə Asəf qızı |
| 7. Otorinolarinqoloq | - |
| 8. Stomatoloq | - Qasımova Nərmin Akif qızı |
| 9. Dermatovenerolog | - Turabov Məhəmməd Məmməd oğlu |
| 10. Tibb bacısı | - Xanəliyeva Səlmixanım Əli qızı |
| 11. Komissiyanın katibi | - Salahova Xatirə Rasim qızı |

2. Hərbi-həkim komissiyasının sədrinə tapşırılsın ki, hərbi-həkim komissiyası üzvlərinin vaxtında komissiyada olmalarını təmin etməklə işin keyfiyyətli təşkilinə, tibbi müayinə zamanı xəstəliyi müəyyən edilmiş gənclərin rayon mərkəzi xəstəxanasında müalicəsini təmin etməklə işin sistematik həyata keçirilməsinə nəzarət etsin, hərbi-həkim komissiyasının keyfiyyətlə işləməsi üçün zəruri avadanlıq və tibbi ləvazimatlarla təmin olunması məqsədilə aidiyyəti üzrə müvafiq tədbirlər görülsün.

3. 2011-ci il təvəllüdlü gənclər və hər hansı bir səbəbdən hərbi qeydiyyat üçün sənədləri olmayan böyük yaşlı çağırışçıların hərbi qeydiyyata götürülməsi məqsədilə rayonun əlaqədar idarə, müəssisə və təşkilat rəhbərlərinə tapşırılsın ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon idarəsinə hərtərəfli köməklik göstərilməsini təmin etsinlər.

4. İlkin hərbi qeydiyyata alınmaq üçün gələn 2011-ci il təvəllüdlü vətəndaşların lazım olan sənədlərlə nəzərdə tutulmuş qaydada Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon idarəsinə gəlməsinə MKİS-nin rəisləri, yataqxana komendantları, icra hakimiyyəti başçısının qəsəbələr üzrə nümayəndəlikləri köməklik göstərsinlər.

5. Yanvar-mart ayları ərzində rayon ərazisində yerləşən 11 və 20 saylı poliklinikaların baş həkimlərinə tapşırılsın ki, 2011-ci il təvəllüdlü gənclərin ambulator kartalarından çıxarışların və mövcud qanunvericilikdə nəzərdə tutulmuş laborator tibbi müayinələrin vaxtında keçirilməsini və nəticələrini Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon idarəsinə göndərilməsini təmin etsinlər.

6. İlkin hərbi qeydiyyata alınma ilə əlaqədar Rayon İcra Hakimiyyətinə vaxtaşırı məlumat verməklə, sərəncamın vaxtında yerinə yetirilməsinə nəzarət Səfərbərlik və Hərbi

Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon idarəsinin rəisi, polkovnik Əliyev Nizami Bayramqulu oğluna tapşırılsın.

7. Sərəncamın icrasına nəzarət Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Hacıbaba Babayevə həvalə edilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN